# Misralarda yaşayan şəhid ömrü



Keçirdiyimiz hər gün tarixə çevrilir. Lakin elə günlər var ki, unudulub gedir, eləsi də olur ki, yaddan çıxmır. Bu dünyada bəxş olunan ömrü gərək elə başa vurasan ki, həyata əlvida deyəndə heç olmasa xatirələrdə yaşaya biləsən. Necə ki, şəhidlərimiz bu ömrü beləcə - şərəflə yaşadılar: Vətən yolunda canlarından keçərək bu zirvəyə yüksəldilər, elə Vüsal Alıyev kimi. O, ermənilərin növbəti təxribatının qarşısı alınarkən düşmən gülləsinə tuş gəlmişdi.

...1996-cı il oktyabr ayının 4-də Alıyevlər ailəsində böyük sevinc yaşanmışdı. Şahnaz xanımın əkiz övladı dünyaya gəlmişdi. Birinin adını Vüsal, o birisininkini isə Vüqar qoydular. Bir müddət Tovuzun Qovlarında yaşadıqdan sonra ailə Şəmkir rayonunun Kür qəsəbəsinə köçdü. Vüsalla Vüqar burada orta məktəbi bitirib Azərbaycan Ordusu sıralarında xidmətə yola düşdülər. Ön cəbhədə düşmənlə üz-üzə dayanan Vüsalla Vüqar tez-tez evlərinə Azərbaycan Ordusunun qüdrətindən, Ali Baş Komandanın bir əmri ilə işğalda qalan torpaqlarımızın qısa müddətdə azad edilməsinə hazır olduqları barədə məktublar yazırdılar.

Vüsalın anası Şahnaz Alıyeva deyir: "Bir dəfə Vüsal məktubunda yazmışdı ki, artıq mən dözə bilmirəm. Bizim gözəl torpaqlarımızda at oynadan qorxaq ermənilərin payını vermək vaxtıdır. Fürsət olsa, xalqımın şəhid övladlarının qisasını onlardan alacam. Açığını deyim ki, Vüsaldan nigarançılıq keçirirdim. O, Vüqara nisbətən çox çılğın idi. Axırıncı dəfə telefonla zəng edib, hal-əhvalımızı soruşdu. Dedim ki, sahəmizdə bir az kartof əkmişəm. Yaman acıqlandı. Dedi ki, inşaallah, Vüqarla yaxın günlərdə hərbi xidməti başa çatdırıb, qayıdarıq. Onda əlini ağdan-qaraya vurmağa qoymarıq".

Vüsalın bu istəyi gözündə qaldı. Tərtərin təmas xəttində ermənilərin növbəti təxribatının qarşısını alarkən düşmən gülləsi onun arzularını yarımçıq qoydu.

Vüsalın qardaşı Vüqar Alıyev: "Biz bir bölgədə xidmət etdiyimizdən onu tez-tez görürdüm. Bir dəfə yoldaşları dedilər ki, Vüsal şeir yazır. Güldüm. Axı, orta məktəbdə o qədər də yaxşı oxumamışdı. Lakin şəhid olarkən cibindən çıxan bir dəftərçəni açıb oxuyarkən gördük ki, Vüsalın yazdığı şeirlərin hamısı vətənpərvərlik ruhundadır:

*Məktubu yazıram, saxla yadigar,*
*Bəlkə bu sonuncu məktubum oldu.*
*Yolumu gözləmə, bəlkə də bir gün,*
*Bir güllə mənim də qismətim oldu.*

İndi Şahnaz ana təsəllini şəhid Vüsalın yazdığı şeirlərdən alır. Hər dəfə dəftərçəni vərəqləyəndə oğlunun əsl vətənpərvər olmasından qürur hissi keçirir və deyir: "Biz analar oğullarımızı Vətənin, namusumuzun qorunması üçün böyüdürük. Vüsal sinəsini bu amal uğrunda düşmən gülləsinə sipər etdi. Mən onunla fəxr edirəm".

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***